# Həftəlik *Bülleten*



**082**

**21 Fevral 2025**

- Xəbərlər
- Tədbirlər
- Görüşlər
- Tender və layihələr
- Dünya tikililəri

ATMİA

info@atmia.az www.atmia.az

**Prezident İlham Əliyev Xankəndidə Zəfər parkının təməlqoyma mərasimində iştirak edib**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Xankəndi şəhərində Zəfər parkının təməlqoyma mərasimində iştirak edib. Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına parkda görüləcək işlər barədə ətraflı məlumat verdi. Xankəndi şəhərində Zəfər parkının salınması məqsədilə 12,9 hektar ərazidə söküntü işlərinin aparılması nəzərdə tutulub. Ərazi şərti olaraq iki hissəyə bölünüb və 8,3 hektar sahəsi olan birinci hissədə söküntü işləri artıq yekunlaşıb. Ümumilikdə ərazidən 279 min 416 kubmetr həcmində söküntü tullantılarının daşınması təmin olunub. İkinci hissə isə 4,6 hektar ərazini əhatə edir. Burada da söküntü işləri aparılacaq. Ərazidəki mövcud ağacların qorunması məqsədilə aidiyyəti təşkilatlarla birgə baxış keçirilib və müxtəlif növ 262 ağac müəyyən edilib. Bundan başqa, parkın ərazisində 21 növ üzrə 300-dən çox ağacın əkilməsi nəzərdə tutulur. Hazırda ərazidə planlaşdırma işləri görülür. Prezident İlham Əliyev Xankəndi şəhərində Zəfər parkının təməlini qoydu. Qeyd edək ki, ölkəmizdə yaradılan Zəfər parkları xalqımızın Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın, qazandığı möhtəşəm tarixi Qələbənin, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpasının rəmzidir.



**Azərbaycan yanvarda xaricə 4,3 milyon dollarlıq sement - İXRAC EDİB**

2025-ci ilin yanvar ayında Azərbaycandan dəyəri 4 milyon 265 min dollar həcmində 68 min 336 ton sement ixrac edilib.
Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir ki, sement ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 751,7 min dollar və ya 21,4%, miqdar ifadəsində isə 6 min 344 ton, başqa sözlə, 10,2% artıb.
Xatırladaq ki, 2024-cü ilin yanvar-ayında isə Azərbaycandan 3 milyon 513 min dollar dəyərində 61 min 992 ton sement ixrac edilmişdi.
Qeyd edək ötən il  əzində ixrac edilən sementin 1 kiloqramının orta ixrac dəyəri 11 qəpik olub. 2024-cü ilin eyni dövründə isə bu rəqəm 10 qəpik idi. Bu da illik müqayisədə 1 qəpik və ya 10,1% artım deməkdir.
Bu il ümumi ixracının 0,14%-i, qeyri-neft sektoru üzrə ixracın isə təxminən 1,74%-ü sementin payına düşüb.



**İlham Əliyev Ağdam şəhərində 2-ci yaşayış kompleksində aparılan tikinti işləri ilə tanış olub.**

Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva fevralın 18-də Ağdam şəhərində 1267 mənzilli 2-ci yaşayış kompleksində aparılan tikinti işləri ilə tanış olublar.

Dövlət başçısına və xanımına məlumat verilib ki, ümumi sahəsi 14 hektara yaxın olan yaşayış kompleksi Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş Baş Planına uyğun salınıb.

Burada tikilən yaşayış binalarındakı mənzillərdən 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü isə dördotaqlıdır.

Ərazisinin böyük bir hissəsi yaşıllıq zonasından ibarət olacaq kompleksdəki binaların inşasında modern memarlıq yanaşmalarından və milli naxış elementlərindən istifadə olunur. Burada idman meydançalarının, istirahət guşələrinin, velosiped dayanacaqlarının və digər zəruri infrastruktur obyektlərinin yaradılması nəzərdə tutulur.



**Azərbaycanda zəlzələyə dayanıqlılığı yoxlamaq üçün binalara yeni cihazlar yerləşdiriləcək.**

Yerin dərinliklərindəki hərəkətlər nəticəsində böyük dağıntılara səbəb olan zəlzələdən qorunmaq üçün Azərbaycanda yeni üsuldan istifadə olunacaq. Bunu Azərbaycan Memarlıq və İnşaat Universitetinin (AMİU) Zəlzələ Elmi Tədqiqat Mərkəzinin direktoru, professor Azər Qasımzadə deyib. O bildirib ki, binalara yeni cihazlar yerləşdiriləcək və bununla da onların zəlzələyə dayanıqlılığını yoxlamaq, izləmək mümkün olacaq: "İzlənmə cihazları strateji əhəmiyyətli yüksək bina və qurğulara qoyulacaq". A.Qasımzadə qeyd edib ki, AZMİU-nun Seysmik Araşdırma Mərkəzində bununla əlaqəli Monitorinq Mərkəzinin bu ildən qurulması planlaşdırılıb: "Mərkəzdə binalar cihazlar vasitəsilə fasiləsiz izləniləcək, layihədən kənaraçıxma varsa, bununla bağlı bina sahibinə məlumat veriləcək. Qarşı tərəfin tələbi əsasında mövcud problemləri aradan qaldırmaq üçün layihə veriləcək. Bu da təkanlar qeydə alındıqdan sonra olacaq. Məsələn, zəlzələ zamanı binadan mərkəzə siqnal gələcək. Nəticə etibarilə mərkəzdə yeraltı təkanların meydana gətirəcəyi yerdəyişmə barədə bütün informasiyalar olacaq. Əgər təhlükə varsa, həmin məlumatlar aidiyyəti üzrə təqdim olunacaq". AMEA nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli isə qeyd edib ki, Azərbaycan seymoaktiv bölgədə yerləşir: "Bu səbəbdən tarixi zəlzələlərin təkrar olması ehtimalı qaçılmazdır".



**Azərbaycan yanvarda alüminium ixracından 12,4 milyon dollar qazanıb.**

2025-ci ilin yanvar ayında Azərbaycandan dəyəri 12 milyon 425 min dollar həcmində 4 min 330 ton alüminium ixrac edilib.

Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir ki, alüminium ixracı ötən ilin eyni dövrü ilə müqayisədə dəyər ifadəsində 2 milyon 950 min dollar və ya 19,2%, miqdar ifadəsində isə 1 338 ton, başqa sözlə, 23,6 % azalıb.

Xatırladaq ki, 2024-cü ilin yanvar ayında isə Azərbaycandan 15 milyon 381 min dollar dəyərində 5 min 668 ton alüminium ixrac edilmişdi.

Qeyd edək ötən il əzində ixrac edilən alüminiumun 1 kiloqramının orta ixrac dəyəri 4,87 manat olub. 2024-cü ilin eyni dövründə isə bu rəqəm 4,61 manat idi. Bu da illik müqayisədə 27 qəpik və ya 5,7% artım deməkdir.

Bu il ümumi ixracının 0,41 %-i, qeyri-neft sektoru üzrə ixracın isə təxminən 5,06 %-i alüminiumun payına düşüb.



## Bakının bu ərazisində bulvar salınacaq.

Bakıda, Bülbülə gölü ətrafında yeni bulvar salınacaq. Bu barədə Bakı Abadlıq Xidməti məlumat yayıb. Bildirilib ki, uzun illər ətrafdakı qəsəbələrin tullantı və çirkab sularının axıdıldığı Bülbülə gölü tezliklə təmiz, abad, göz oxşayan istirahət məkanına çevriləcək. Ümumi sahəsi 99 hektar olan Bülbülə gölündə suyun real dərinliyi 2.50-2.80 metrdir. Gölün ətrafında yaşayış evləri var. Bəzi evlərlə göl arasındakı məsafə 10 metrdən də yaxındır. Hazırda gölün ətrafındakı qamışlıq tamamilə qurudulub, tullantılar təmizlənib. Gölə axıdılan çirkab suların qarşısını kəsmək üçün gölün ətrafında minlik magistral xətt çəkilib. Məlumata görə, Bülbülə gölündə layihələndirmə işləri başa çatdırılıb. Növbəti mərhələdə sahil boyunca asfalt salınacaq. Yeni bulvarda restoran və kafelərin fəaliyyət göstərməsi, dairəvi velosiped yolunun çəkilməsi nəzərdə tutulub. Bulvarda uşaqlar üçün meydança, yaşıllıqlar, istirahət yerləri olacaq, katamaran işləyəcək. Layihəyə görə Bülbülə gölünün üzərindən körpü də salınacaq. Qeyd olunub ki, Əmircan, Bülbülə, Bakıxanov və Qaraçuxur qəsəbələrindən gündəlik 25 min kubmetr çirkab sularının axıdılması nəticəsində göldə və gölətrafı ərazidə xoşagəlməz vəziyyət yaranmışdı.



**ATMİA üzvləri Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinin Bakı Məşğulluq filialında qurumun rəhbərliyi və səlahiyyətli nümayəndələrin iştirakı ilə dəyirmi masa ətrafında görüşdülər.**

18 fevral tarixində ATMİA üzvləri Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinin Bakı Məşğulluq filialında qurumun rəhbərliyi və səlahiyyətli nümayəndələrin iştirakı ilə dəyirmi masa ətrafında görüşdülər. Görüşdə kadrların əmək haqqının 50%-nin dövlət tərəfindən ödənilməsi, kadrların peşə hazırlığı kurslarına qəbulu, dövlətin bu sahədəki dəstəyi, əmək yarmarkaları ilə bağlı ətraflı məlumatlar verildi və maraqlı müzakirələr aparıldı. Həmçinin, ATMİA üzvlərinin sualları cavablandırıldı və müraciətləri qeydə alındı. Tədbirdə iştirak edən sahibkarlara təşəkkür edirik və bildirmək istərdik ki, bu cür görüşlər mütamadi olaraq təşkil olunacaq.










**ATMİA üzvlərinin iştirakı ilə “Turan Dövlətləri II İnşaatçılar və Əmlakçılar Forumu” keçirilib.**

20 fevral tarixində “Turan Dövlətləri II İnşaatçılar və Əmlakçılar Forumu” təşkil edilib. ATMİA üzvlərinin iştirakı ilə təşkil olunan tədbir sahibkarlar tərəfindən maraqla qarşılanıb. İştirak edən üzvlərimizə təşəkkür edir və yeni uğurlar arzulayırıq.
Daha ətraflı: https://gbaruforums.com/

## ATMİA üzvü «Maks Company» Ltd
## Şirkət haqqında:

«Maks Company» Ltd 1995-ci ildə təsis edilmişdir. Maks Şirkəti, daşınan kabinlər, modul tipli binalar, daimi binalar, etibarlı anbar, portativ tualetlər və bütün Qafqaz bölgələrindən müvəqqəti çəpərlər daxil olmaqla köçürülə bilən yaşayış yerlərində Qafqaz lideridir. Müxtəlif sahələr üzrə müvəqqəti, yarı qalıcı və qalıcı istifadə üçün icarə üçün binalar, satış və icarə üçün bina və ərazidən kənar daimi binalar təmin edirik.

«Maks Company» Ltd şirkətinin direktoru Məmmədov Kamran.

**Əlaqə məlumatları:**

Ünvan: AZ1000, Ələsgər Qayıbov 12, Bakı, Azərbaycan
Tel: (+994 50) 318-73-94; (+994 55) 318-73-94
E-mail: info@makscompany.az
www.makscompany.az



## ATMİA üzvü “Estimator” MMC

**Şirkət haqqında:**

ATMİA üzvü «Estimator» MMC 2011-ci ildə təsis edilib. Ölkəmizdə ilk texniki audit xidməti göstərən şirkətdi. Şirkətin xidmətlərinə Daxili smetaların tərtib edilməsi, Material sərfiyyatının hesablanması, Keyfiyyətə nəzarət, Texniki nəzarətin həyata keçirilməsi və aylıq hesabatların hazırlanması, Texniki hesabatların hazırlanması, naryad, forma 2, forma 3-lərin yazılması, material silgisinin aparılması, Hüquqi normativ aktların və jurnalların yazılması, Qüsur aktının tərtib edilməsi daxildir.

«Estimator» MMC şirkətinin direktoru Bədir Qədirov.

**Əlaqə məlumatları:**

Ünvan: Bakı, Yasamal rayonu, 1 ci alatava, Şəfayət Mehdiyev 93

Telefon: +994 50 620 23 28

E-mail: estimatormmc@gmail.com

www.estimator.az



**Hörmətli sahibkarlar!**

ATMİA üzvü, UHOM layihəsinin müəllifi Rövşən Qasımzadə Rusiya-Azərbaycan ticari əlaqələri ilə bağlı İTV-nin efirində yayımlanan “Xəbər Yekunu” informasiya buraxılışına müsahibə verib. ATMİA-nı təmsil edərək ziyalı mövqeyini bildirən Sahibkara təşəkkür edir, UHOM Regional Satış Mərkəzində yer almaq istəyən digər üzvlərimizi layihə ilə bağlı ətraflı məlumat almağa dəvət edirik.
Tel.: 0502320781
Süjetin linki: https://youtu.be/Nvg863pvVpU?si=bBE93LkTBYBflqLD

anons

**Hörmətli sahibkarlar!**

25.02.2025-ci il, saat 10.00-da işgüzar səhər yeməyi çərçivəsində ATMİA tam hüquqlu üzvü “AR CONSTRUCTİON” MMC-nin rəhbəri yüksək səs və vibrasiya həlləri, habelə, seysmik asqı sistemlərinə aid son innovasiyalar barədə məlumatlar verəcək. Mövzu ilə maraqlanan ATMİA üzv şirkətlər üçün iştirak ödənişsizdir. Yerlər məhdud olduğu üçün dizayn, memarlıq, layihə təmir və ya tikinti ilə məşğul olan ilk müraciət edən 15 ATMİA üzvünün iştirakı qeydə alınacaq.
Qeydiyyat üçün: 050 265 36 34



**Hörmətli sahibkarlar!**

Avropa Mühəndislər Birliyinin prezidenti cənab Platonas Stylianou tərəfindən ATMİA Baş Katibinə üzvlüklə bağlı rəsmi müraciət ünvanlanmışdır. Avropa inşaat bazarı haqda məlumatlı, təcrübəli, həmçinin yaxın gələcəkdə idxal-ixrac əməliyyatı icra edən üzvlərimizdən müzakirə və planlama üçün əlaqə saxlamasını xahiş edirik.
Tel.: 0502320781

anons

**Hörmətli sahibkarlar!**

25-27 fevral tarixlərində, saat 15:00-da, Bakı KOB evində ANEA və ATMIA arasında əməkdaşlıq çərçivəsində Logistika üzrə master class baş tutacaq.

Master classda  Logistikanın strateji əhəmiyyəti, logistika zəncirinin qurulması, risklərin idarə edilməsi mövzularında məlumatlar veriləcək. Tədbirin sonunda iştirakçılara, EDUCA tərəfdaş sertifikatlar təqdim olunacaq.

Qeydiyyat: 050 265 36 34



# SƏRGİ/KONFRANS/FORUM

**Sərginin adı: FUTUREBUILD 2025**
**Tarixlər: 04 - 06 mart 2025-ci il**
**Məkan: ExCeL, London (Böyük Britaniya - Böyük Britaniya)**
Davamlı Gələcəyin Layihələndirilməsi və qurulması. Futurebuild davamlı dizayn, tikinti və tikinti mühiti üçün dünyanın ən böyük tədbiri və Böyük Britaniyanın ən böyük tikinti tədbiridir.

**Sərginin adı: BUILD+DECOR 2025**
**Tarixlər: 06 - 09 mart 2025-ci il,**
**Məkan: Çin Beynəlxalq Sərgi Mərkəzi (CIEC), Pekin (Çin)**
Çin Beynəlxalq Tikinti Dekorasiyası və Tikinti Materialları Sərgisi. Bina bəzək məhsulları, Bütün evin fərdiləşdirilməsi, Bütün evin dekorasiyası, Mətbəx və hamam texnikası, Ağıllı ev, Pəncərələr, qapılar və aksesuarlar, Prefabrik ev...

**Sərginin adı: EXPO CASA UMBRIA 2025**
**Tarixlər: 01 - 09 mart 2025-ci il**
**Məkan: Umbriafiere, Bastia Umbra (İtaliya)**
Expo Casa, estetik zövq, rahatlıq, innovasiya, təhlükəsizlik və ekoloji davamlılığı birləşdirən hər bir ehtiyaca uyğunlaşa bilən həllər təklif edən İnşaat və Mebel sahəsinə həsr olunmuş böyük sərgidir.

**Sərginin adı: BHP 2025**
**Tarixlər: 04-05 mart 2025-ci il,**
**Məkan: Katovitse Beynəlxalq Konqres Mərkəzi (Polşa)**
Əməyin Mühafizəsi, Sağlamlıq və Yanğın Təhlükəsizliyi Yarmarkası

**QUBADLI RAYON İCRA HAKİMİYYƏTİ TENDER ELAN EDİR.**

Qubadlı Rayon İcra Hakimiyyəti açıq tender elan edir.
Elanda Layihə smeta sənədlərinin hazırlanmasının satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Allahverdi Haxverdiyev, muavin
Email: qubadli.icra@mail.ru
Əlaqə telefonu: 050-330-88-69



**AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT SƏRHƏD XİDMƏTİ TENDER ELAN EDİR**

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti açıq tender elan edir.
Elanda Tikinti materialları satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Toğrul Qarayev, Satınalma mütəxəssisi
Email: dsx.tender@dsx.gov.az



**ŞAMAXI RAYON İCRA HAKİMİYYƏTİ ŞAMAXI ŞƏHƏR NÜMAYƏNDƏLİYİ TENDER ELAN EDİR.**

Şamaxı Rayon İcra Hakimiyyəti Şamaxı Şəhər nümayəndəliyi açıq tender elan edir.
Elanda Şamaxı şəhər mənzil fondunun əsaslı təmiri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Mikayılov Zaur, Məsləhətçi
Email : yusif.b-1960@mail.ru
Əlaqə telefonu : +994505516234



**LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ TENDER ELAN EDİR.**

Lənkəran Dövlət Universiteti açıq tender elan edir.
Elanda Lənkəran Dövlət Universiteti binalarında cari təmir işləri nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Tural Ismayıllı, Satınalmaların təşkili və təchizat şöbəsinin müdiri vəzifəsini icra edən
Email : tural.ismayilov.98@list.ru
Əlaqə telefonu : 070-204-89-00



**"ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ TENDER ELAN EDİR.**

"ƏSASLI TİKİNTİ VƏ TƏCHİZAT" Məhdud Məsuliyyətli Cəmiyyəti açıq tender elan edir.
Elanda Mədəni Tədbirlərin Təşkili və Yaradıcı Gənclərlə İş üzrə Mərkəzin əsaslı təmiri işlərinin satın alınması nəzərdə tutulub.

Malgöndərənlərlə (podratçılarla) vasitəçi olmadan əlaqəni təmin edən, onlarla məlumat mübadiləsini aparan satınalan təşkilatın vəzifəli şəxsi (/ləri) –

Teymur Məmmədov, Baş mütəxəssis
Email: tender@culture.gov.az
Əlaqə telefonu : 012 565 0147 (448)





www.atmia.az